

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 203 (21.355)

18 oktyabr 2015-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 17 oktyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında statistika işinin təşkili sahəsində səmərəli fəaliyyətlərinə görə statistika sahəsində çalışan bir qrup işçi təltif edilmişdir.

Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin işçiləri də vardır.

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Baxşıyev Hüseyn Baxşı oğlu

Məmmədov Məhərrəm Allahverdi oğlu

kənarda qalmamaları məqsədilə siyasi fəaliyyətə qoşulmuş, 1905-ci ildə "Hümmət" adlı sosial-demokrat təşkilatın rəhbərliyinə daxil olmuş, 1917-ci ildə isə bu təşkilatın sədri seçilmişdir. Siyasi fəaliyyətə maarifçi və sosial-demokrat kimi gələn Nəriman Nərimanov iyirminci əsrin əvvəllərində sosializm ideyasının Azərbaycanın dövlət müstəqilliyini təmin edəcəyinə inanmış və Sovet Azərbaycanı ideya və əməl birliyinin mühüm tarixi hadisəsidir. Nərimanovun dövlətçilik baxışlarında özünü göstərən millilik və türkçülük, ağır maliyyə sarsıntıları keçirən Türkiyəyə maliyyə və maddi yardım göstərməsi o dövr üçün çox riskli məsələ idi. Bu siyasətin hakim partiya rəhbərləri ilə Nərimanov arasında ixtilaf yaratmasına baxmayaraq, o, öz mövqeyindən geri çəkilməmişdir.

## Naxçıvanda görkəmli dövlət xadimi və ədib Nəriman Nərimanovun 145 illik yubileyi qeyd olunmuşdur





Oktyabrın 17-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında görkəmli dövlət xadimi və ədib Nəriman Nərimanovun anadan olmasının 145-ci ildönümü qeyd olunmuşdur.

Tədbir başlanmazdan əvvəl görkəmli dövlət xadiminin Naxçıvan şəhərindəki büstü önünə gül qoyulmuşdur.

Yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məruzə edərək demişdir: Bu gün görkəmli dövlət xadimi, böyük ədib Nəriman Nərimanovun 145 illik yubileyini qeyd edirik. Nəriman Nərimanov ötən əsrin əvvəllərində Azərbaycan naminə fədakarlıqla çalışan və bu yolda həyatını qurban verən böyük şəxsiyyətlərdən biridir. Aradan uzun bir dövr keçməsinə baxmayaraq, bu gün də Nəriman Nərimanov deyəndə gözlərimiz önündə işıqlı insanın, ləyaqətli vətəndaşın, böyük istedada malik ziyalının və qətiyyətli dövlət xadiminin obrazı canlanır. Xalqımızın yetişdirdiyi bu böyük şəxsiyyətin həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Nəriman Nərimanovun əməkçi kütlələri maarifləndirmək əzmi, insanlara xidmət etmək kimi nəcib bir arzusu, hadisələri dərindən başa düşməsi, istedad və bacarığı onu Azərbaycan demokratik və ictimai-siyasi fikir nümayəndələrinin ön cərgəsinə çıxartdı. ... Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir..."***

Nəriman Nərimanovun həyat və fəaliyyəti ictimai-siyasi fikir tariximizin mürəkkəb və ziddiyyətli bir dövrünə təsadüf edir. 1870-ci ilin aprelində Tiflisdə anadan olan Nəriman Nərimanov 1890-cı ildə Qori Müəllimlər Seminariyasını, 1908-ci ildə isə Odessada Tibb Universitetini bitirmişdir. 1919-cu ildə Rusiya Xalq Xarici İşlər komissarının müavini vəzifəsinə təyin edilən Nəriman Nərimanov 1920-ci ildən Azərbaycan Xalq Komissarları Sovetinin sədri, 1922-ci ildən ömrünün sonunadək – 1925-ci ilədək keçmiş Sovetlər Birliyinin ali qanunverici orqanının – Mərkəzi İcraiyyə Komitəsinin 4 sədrindən biri olmuşdur. 54 il ömür yaşayan Nəriman Nərimanov Azərbaycana düşmən qüvvələrin təzyiqi altında yaşamış və işləmiş, lakin Azərbaycanın haqq işi uğrunda mübarizədən çəkinməmiş, öz missiyasını axıradək yerinə yetirmişdir.

Ali Məclisin Sədri demişdir: Nərimanovun missiyası nədən ibarət idi? Nəriman Nərimanov mənsub olduğu xalqın maariflənməsini, insanların nadanlıqdan və cəhalətdən xilas olmasını istəyirdi. Dini xurafatın aradan qaldırılması və cəmiyyətin sağlamlığı üçün tibbi təhsilin, nadanlığın və cəhalətin aradan qaldırılması üçün isə dünyəvi təhsilin vacib olduğunu görən gənc Nəriman Nərimanov müəllimlik və həkimlik peşəsinə yiyələnmişdi. Xalq arasında maarifçiliyin yayılması yollarını axtaran Nərimanov Borçalı qəzasında və Bakıda müəllimlik etmiş, bununla yanaşı teatrın da roluna üstünlük vermiş, Borçalıda müəllim işləyərkən ilk qələm təcrübəsi olan "Nadanlıq" pyesini yazmışdı. Maarifçilik işini genişləndirmək məqsədilə 1894-cü ildə Bakıda ilk kütləvi kitabxana yaradan Nərimanov imkansız adamların müalicəsi üçün xəstəxana da açmış, Azərbaycanda səhiyyə mədəniyyətinin formalaşmasına çalışmışdır.

Qeyd olunmuşdur ki, Nərimanovun ədəbi-publisistik fəaliyyəti də maarifçi məzmun daşımış, cəmiyyəti nadanlıqdan qurtarmaq, ictimai problemləri diqqətdə saxlamaq məqsədinə xidmət etmişdi. Realist Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Nəriman Nərimanov ədəbiyyatımızın mütərəqqi keyfiyyətlərlə zənginləşməsində müstəsna rol oynamışdır. O, ədəbiyyatımızda ilk roman və tarixi faciə janrının banisi kimi də böyük xidmətlər göstərmiş, özünün dövlət və idarəetmə fəlsəfəsinə uyğun gələn "Nadir şah" kimi qiymətli dram əsərini yaratmışdır. Nərimanovun yaradıcılığında publisistikanın da özünəməxsus yeri vardır. On doqquzuncu əsrin sonlarından Azərbaycan və yaxın Şərq mətbuatında nəşr olunan felyeton, ədəbi-tənqidi və elmi-publisist məqalələrində o, milli demokratik mövqedən çıxış etmiş, xalqın azadlığı, tərəqqi və səadəti yolları barədə düşüncələrini bölüşmüşdür.

Ali Məclisin Sədri demişdir: Ziyalı o şəxsdir ki, öz zamanında millətin mənəvi ehtiyaclarını görsün, inkişafa mane olan problemlərin aradan qaldırılmasında, ictimai birliyə nail olunmasında nümunə göstərsin. Bu nümunəni biz Nəriman Nərimanovun fəaliyyətində görürük. O yazırdı ki: "Bir millət özünü tanımayınca hüququnu düşünməz. Tanımaq üçün də dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır. Bunların da meydana gəlməsi və tərəqqisi bizim üçün hürriyyətə bağlıdır". Hürriyyətin, millətlərin azadlığının əldə olunması üçün digər millətlərin hərəkətə keçdiyini görən Nəriman Nərimanov azərbaycanlıların da yeni yaranmış ideyalardan kənarda qalmamaları məqsədilə siyasi fəaliyyətə qoşulmuş...

canını Şərq üçün nümunəvi respublikaya çevirmək istəmişdir. 1920-ci il aprelin 28-də Azərbaycanın rəhbəri təyin edilən Nərimanov yaranmış imkanlardan ölkənin müstəqilliyi üçün maksimum faydalanmağa çalışmışdır. Buna görədir ki, onun dövlətçilik fəaliyyətində Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması xüsusi yer tuturdu.

Nərimanov Azərbaycan dilinə və dinə qayğı ilə yanaşmışdır. Onun fərmanı ilə Azərbaycan dili dövlət dili statusu almışdı. Bakıdakı Təzəpir məscidini bərpa etdirən Nərimanov on birinci ordu tərəfindən tutulmuş məscidləri boşaltdırmış, müqəddəs yerlərin və ziyarətgahların qorunması, Novruz, Qurban və Ramazan bayramlarının istirahət günü elan edilməsi barədə xüsusi sərəncam vermişdi. Azərbaycanın görkəmli din xadimlərinin, çar və müsavat ordusunun azərbaycanlı generallarının bolşeviklərin ölüm təhlükəsindən qurtarılmaları, yaradıcı insanların xüsusi qayğı ilə əhatə olunmaları Nərimanovun mənəviyyata və hərbi kadrların yetişməsinə göstərdiyi diqqətin ifadəsi idi. Nərimanov Azərbaycanın müstəqil xarici siyasət aparmasının tərəfdarı olmuşdur. O, Moskvada Azərbaycanın daimi nümayəndəliyini yaratmış, imzaladığı mandatla Xalq Ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini Rusiyada danışıqlar aparmaq üçün Azərbaycanın fövqəladə və səlahiyyətli müvəkkili təyin etmişdir. Nərimanov–Behbud ağa Şahtaxtinski birliyi taleyüklü məsələlərə münasibətdə, o cümlədən Azərbaycanın ərazi bütövlüyünün qorunmasında çox mühüm fayda vermişdir.

Ali Məclisin Sədri demişdir: Azərbaycanın ərazi bütövlüyünün qorunması Nərimanovun qarşısında dayanan əsas məsələlərdən biri idi. O, Azərbaycanda hakimiyyətə gələrkən İrəvan və Dərbənd artıq itirilmişdi. Naxçıvan, Zaqatala, Zəngəzur, Qarabağ və Bakının taleyi isə mürəkkəb olaraq qalırdı. Nərimanovun səyi nəticəsində Naxçıvan, Qarabağ və Zaqatala Azərbaycanın tərkibində saxlanmış, Bakı Azərbaycanın paytaxtı kimi tanınmışdı. Naxçıvan məsələsində Nəriman Nərimanovun tutduğu mövqe, xüsusilə onun adından Behbud ağa Şahtaxtinskinin Moskvada atdığı addımlar, Moskva danışıqları ərəfəsində Türkiyə nümayəndəliyi ilə aparılan müzakirələr Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi kimi saxlanmasını təmin etmişdir. Azərbaycanın dövlətlərarası münasibətlərində mühüm tarixi əhəmiyyəti olan Moskva və Qars müqavilələri məhz Nəriman Nərimanovun və Behbud ağa Şahtaxtinskinin ideya və əməl birliyinin mühüm tarixi hadisəsidir...

Qeyd olunmuşdur ki, Nərimanovun milli siyasəti çoxlarını narahat edirdi. Hətta o vaxt erməni mətbuatı açıq-aşkar yazırdı ki, Nəriman Nərimanov kommunistliyini çox tez-tez unudur və özünün milli türk simasını çəkinmədən nümayiş etdirir. Göründüyü kimi, bolşevik həmkarları ilə Nəriman Nərimanov arasında dərin fikir ayrılığı yaranmışdı. Bolşeviklər Azərbaycanın Rusiyanın muxtar əyaləti olmasını istəyirdilər, Nərimanov isə əksinə, Azərbaycanın müstəqil sovet respublikası olmasına çalışırdı; bolşeviklər beynəlmiləlçilik ideyasına söykənərək Azərbaycanda əksər vəzifələrin qeyri-azərbaycanlılara verilməsini tələb edirdilər, Nərimanov isə vəzifələrdə Azərbaycanın öz milli kadrlarının olmasında israrlı idi; bolşeviklər xalqların dostluğunu əsas götürərək Naxçıvanın və Qarabağın ermənilərə verilməsini təkid edirdilərsə, Nərimanov bunun əleyhinə çıxır, Mərkəzi hakimiyyətə ən sərt formada öz etirazını bildirir, Naxçıvanla Azərbaycanın əsas ərazisi arasında əlaqənin itirilməməsi üçün Mehridən yol açılmasını şərt kimi irəli sürürdü; bolşeviklər rus dilinin yeganə rəsmi dil olmasında, Nərimanov isə rus dili ilə yanaşı müttəfiq respublikaların milli dil və mədəniyyətlərinin də nəzərə alınmasında qərarlı idi. Bolşeviklər Nərimanovun Azərbaycanla bağlı siyasəti ilə razılaşmır, bu siyasəti "milli təmayülçülük", yaxud "Nərimanovçuluq" adlandırır, buna görə Nərimanovun partiya sıralarından xaric olunmasını, hətta güllələnməsini tələb edirdilər. Nəriman Nərimanov milli təmayülçülüyün yaranma səbəblərindən danışaraq deyirdi ki, "Müqabil tərəfin millətçilik təmayülü olduqda, bu tərəfin də milli təmayülü olacaqdır". Bu mənada özünün milli düşüncə sahibi olduğunu danmayan Nərimanov Stalinə məktubunda hiddətlə soruşurdu ki, nə üçün "Yerli mənafeyin müdafiəsi Mərkəz müvəkkillərinin dilində milli təmayül, lakin ucqar respublikaların zərərinə sovet Rusiyasını müdafiə həmin dildə beynəlmiləl akt adlandırılır?"

Nərimanov Azərbaycana elə bir dövrdə rəhbərlik etmişdir ki, qismətinə taleyüklü problemlərin həlli kimi ağır vəzifələr düşmüşdür. O, sovet rejiminin yaratdığı imkan daxilində bu vəzifənin öhdəsindən layiqincə gəlmiş, Azərbaycanın gələcəyini düşünmüş, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına çalışmışdır. 6 yaşlı oğlu Nəcəfin də özü kimi tərbiyə olunmasını istəyən Nərimanov, ona yazdığı məktubda "Bəlkə də sən bu məktubu oxuyarkən bolşevizm olmayacaq.

*Ardı 2-ci səhifədə*

Əgər mən əbədi məzara tez köçməli olsam, təvəqqe edirəm ki, başqaları üçün daim əzab çəkən atan qədər kiçik bir iş görəsən", – deyirdi.

Ali Məclisin Sədri demişdir: Görkəmli siyasi xadim Nəriman Nərimanovun Azərbaycan xalqına və mədəniyyətinə yenidən qaytarılması ümummilli lider Heydər Əliyevin müstəsna xidmətidir. Ulu öndərimizin təşəbbüsü ilə 1972-ci ildə Nərimanova siyasi bəraət verilərək 100 illik yubileyi keçirilmiş, Bakıda möhtəşəm abidəsi ucaldılmış, ev-muzeyi yaradılmışdı. Bununla yanaşı, "Pravda" qəzetində ümummilli liderimizin Nəriman Nərimanov haqqında geniş məqaləsi dərc edilmişdi. 1977-ci ildə ulu öndər Heydər Əliyevin səyi ilə Ulyanovsk şəhərində Nərimanova abidə ucaldılmış, 1982-ci ildə isə Moskvada xatirə lövhəsinin açılışı olmuşdur. Naxçıvanda da görkəmli dövlət xadiminin xatirəsi əbədiləşdirilmiş, büstü qoyulmuş, Naxçıvan şəhərindəki küçələrdən birinə və Şərur rayonundakı bir nömrəli tam orta məktəbə onun adı verilmişdir.

"Nərimanov qısa, lakin mənalı ömür yaşadı. O, öz həyatını Azərbaycan naminə mübarizəyə həsr etmiş, Azərbaycanı müstəqil dövlət kimi görmək istəmişdir", – deyən Ali Məclisin Sədri bu gün müstəqillik şəraitində yaşadığımız dövrdə xalqımızın azadlıq ideallarını yaşadanların hamısının xatirəsini yad etmiş, çıxışını ümummilli liderimizin 1972-ci il iyun ayının 6-da Bakıda Nəriman Nərimanovun əzəmətli abidəsinin açılışında söylədiyi fikirlərlə tamamlamışdır: ***"Nəriman Nərimanov siyasi rəhbər və təşkilatçı kimi özünün bütün istedadı, qəlbinin bütün hərarəti ilə xalqa xidmət etmişdir. O, bu gün də bizimlədir".***



Sonra Nəriman Nərimanovun "Nadanlıq" pyesi əsasında hazırlanmış "Nadanlıq və ya qəfil telefon zəngi" tamaşasına baxış olmuşdur.

Quruluşçu rejissoru Tofiq Seyidov olan ikihissəli tamaşanın səhnə tərtibatçısı Xalq rəssamı Hüseynqulu Əliyev, musiqi tərtibatçısı isə Çingiz Babayevdir. Xalq artistləri Həsən Ağasoy, Rövşən Hüseynov, Şirzad Abutalıbov, əməkdar artistlər Əli Əliyev, Əbülfəz İmanov, Behruz Haxverdiyev, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Vüsal Rzayev, aktyorlardan Elnur Rzayev, Nazlı Hüseynquliyeva, Fidan Qasımova, Nurbəniz Niftəliyeva, Zəminə Baxşəliyeva, Rəhman Dünyamalıyev və digərləri əsərdəki hadisələrin açılmasında əsl peşəkarlıq nümayiş etdirmişlər. Tamaşa savadsız yaşlı nəsillə bilikli-novator gənclik arasında olan qarşıdurma zəminində dünyəvi təhsilin, müasir məktəbin əhəmiyyətini ön plana çəkir. Azərbaycan ədəbiyyatında nadanlığı ilk dəfə tənqid obyektinə çevirən bu əsərin insanları yeniliyə, işıqlı ideyalara səsləmək ideyası rejissor ustalığı və aktyorların məharəti ilə mükəmməl səhnə həllini tapmışdır.

Tamaşada görkəmli yazıçı və dövlət xadimi Nəriman Nərimanovun obrazı yaradılmış, onun Azərbaycanı müstəqil görmək arzuları əsərin əsas ideyası kimi tamaşaçıya çatdırılmışdır.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səhnə arxasına keçərək yaradıcı heyətlə görüşmüşdür.

Ali Məclisin Sədri uğurlu tamaşaya görə kollektivə təşəkkür edərək demişdir: Tamaşada hər bir aktyor sadəcə olaraq öz rolunu ifa etmədi, həm də obrazı yaşadı. Nəriman Nərimanovun "Nadanlıq" əsəri təkcə yazıldığı dövrlə deyil, həm də bu günlə səsləşir. Nəriman Nərimanov ictimai-siyasi xadim, böyük yazıçı, millətini və Azərbaycanı sevən insan olmuşdur. Ona görə də bu gün Nəriman Nərimanovun həyat və fəaliyyətinə bir daha nəzər salınması, tariximizi onun əsəri ilə göstərmək gələcəyimiz üçün də faydalıdır.

Ali Məclisin Sədri demişdir: Tarix o zaman tarix olur ki, o həm yazılır, həm də yaşadılır. Bu gün tamaşaya qoyulan əsər də yazıldığı dövrün tarixini yaşadaraq bu günə çatdırmışdır. Əsər bu gün olduğu kimi, gələcəkdə də öz aktuallığını qoruyub saxlayacaqdır. Ona görə ki, millətin inkişafını, irəli getməsini göstərən əsərlər tarixə qovuşmur. Onlar tarixi özündə yaşadır və gələcəyə yol açır. Bu gün Nəriman Nərimanovun əsərinə müraciət olunması da təsadüfi deyil. Çünki Azərbaycan Nəriman Nərimanovun arzuladığı müstəqil dövlətdir. Bu dövlətin qurucusu ulu öndər Heydər Əliyev daim Azərbaycanın inkişafı yolunda çalışmış, Sovetlər Birliyinin tərkibində belə ancaq Azərbaycanı, xalqının mənafeyini düşünmüşdür.

Ali Məclisin Sədri tamaşanın 18 oktyabr Müstəqillik Günü ərəfəsində göstərilməsinin əhəmiyyətini qeyd etmiş, bu münasibətlə teatrın kollektivini təbrik etmiş, onlara yaradıcılıq uğurları arzulamışdır.

Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev Naxçıvan teatrının inkişafına göstərdiyi diqqətə görə kollektiv adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonda Ali Məclisin Sədri kollektivlə xatirə şəkli çəkdirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Dövlət Müstəqilliyi Günü qeyd olunub

***Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı dövlət müstəqilliyinin 24-cü ildönümünə həsr olunmuş tədbir keçirmişdir. Tədbirdə təşkilatın sədr müavini İbrahim Hənifəzadənin geniş məruzəsi dinlənilmiş, məruzə ətrafında müzakirələrdə YAP rayon təşkilatının şura üzvü Ramin Şükürov, Maxta kənd tam orta məktəb ilk partiya təşkilatının sədri Musa Şirəliyev, partiya fəalı Natəvan Hüseynova və başqaları çıxış etmişlər.***

Qeyd edilmişdir ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyi barədə qəbul edilmiş Konstitusiya Aktı xalqımızın siyasi həyatında tarixi hadisə oldu. Bu sənədlə Azərbaycan 1918-ci ilin 28 mayında istiqlaliyyət qazanmış Azərbaycan Xalq Cümhuriyyətinin varisi və suveren dövlət kimi beynəlxalq birliyin bərabərhüquqlu üzvü olduğunu dünyaya bəyan etdi.

Vurğulanmışdır ki, müstəqilliyin əldə edilməsi xalqımızın ən böyük sərvətidir və hər bir Azərbaycan vətəndaşı üçün müstəsna əhəmiyyət daşıyır. Lakin daxildəki çəkişmələr, ermənilərin 1988-ci ildən başladıqları və doxsanıncı illərin əvvəllərindən daha da genişləndirilən işğalçılıq siyasəti dövlətimizin varlığını və suverenliyini sual altına qoymuşdu. Məhz bu zaman xalqımız qarşılaşdığı fəlakətlərdən xilas, nicat yolunu ümummilli liderimiz Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışında gördü. Xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayında hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə ölkədə siyasi sabitlik yarandı, bütün sahələr üzrə quruculuq işlərinə başlandı. Ulu öndər ölkəni parçalanmaq təhlükəsindən xilas etdi, dövlət müstəqilliyimizin əbədi və dönməz olması üçün zəmin yaratdı.

Qeyd olunmuşdur ki, əldə olunan uğurlu nəticələrə nəzər salarkən görürük ki, xalqımız 1993-cü ildə düzgün seçim etmişdir. Bu illər ərzində müstəqilliyimizin möhkəmlənməsi, xalqın rifah halının yaxşılaşması, ölkənin sosial-iqtisadi inkişafı üçün nə mümkündürsə edilmişdir və edilir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu strategiya nəticəsində ölkəmizin iqtisadiyyatı inkişaf sürətinə görə artıq neçə illərdir ki, dünyada yüksək yerlərdə qərar tutur. Qazanılan bu uğurların təməlində ulu öndər Heydər Əliyevin uzun müddətə hesablanmış siyasi-iqtisadi inkişaf proqramı, bu siyasətin ölkə başçısı tərəfindən ardıcıllıqla və yaradıcılıqla davam etdirilməsi dayanır. Dövlət başçısının rəhbərliyi altında Azərbaycan siyasi, sosial-iqtisadi və hərbi sahələrdə böyük nailiyyətlər qazanmışdır. Fəxrlə demək olar ki, artıq Azərbaycan dünya birliyində həm siyasi nüfuzuna, həm iqtisadi gücünə, həm də hərbi potensialına görə öncül yerlərdə dayanır.

Çıxışlarda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda iqtisadiyyatın inkişaf mərhələləri, aparılan məqsədyönlü islahatlar və qazanılan nailiyyətlər barədə də danışılmışdır. 20 il bundan əvvəl Naxçıvanda dinamik inkişaf dövrünün başlandığı diqqətə çatdırılaraq bildirilmişdir ki, həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olmasını təmin etmişdir. İqtisadiyyatın dinamik inkişafını şərtləndirən məqsədyönlü tədbirlər əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Muxtar respublikamızın hər bir bölgəsini əhatə edən inkişaf Şərur rayonunun sosial-iqtisadi göstəricilərində də özünü göstərir. Ölkə Prezidentinin və Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində rayonda mühüm əhəmiyyət kəsb edən infrastruktur layihələri həyata keçirilir, sosial obyektlər tikilir, yeni istehsal və emal müəssisələri işə salınır, aqrar sahədə uğurlu nəticələrə nail olunur. Bu gün qürur duyuruq ki, ulu öndərin siyasəti sayəsində müstəqilliyi artıq sarsılmaz, dönməz və əbədi olmuş Azərbaycan Respublikasında yaşayır və qurub-yaradırıq.

Tədbirdə bir qrup gəncə partiyanın üzvlük vəsiqələri təqdim edilmişdir.

## "Tarixi İpək Yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri" mövzusunda keçirilən beynəlxalq konfrans başa çatıb

Oktyabrın 17-də "Naxçıvan" Universitetində bu ali təhsil ocağının, AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət Universitetinin və Türkiyənin Ərdahan Universitetinin təşkilatçılığı ilə keçirilən "Tarixi İpək Yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri" mövzusunda beynəlxalq konfransın bağlanış mərasimi olub.



"Naxçıvan" Universitetinin İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev beynəlxalq konfransın çox aktual bir məsələyə həsr olunduğunu bildirib. Qeyd edib ki, Avropa ilə Asiyanı birləşdirən, keçdiyi ərazilərdə yaşayan xalqların həyatında mühüm rol oynayan Böyük İpək Yolu ölkəmizin iqtisadi və mədəni inkişafına da öz müsbət təsirini göstərib. İpək Yolunun Naxçıvanın digər ölkələrlə mədəni-iqtisadi əlaqələrinin inkişafında rolundan bəhs edən Elbrus İsayev vurğulayıb ki, bu yol ticarətin və bazar münasibətlərinin inkişafına xidmət etməklə yanaşı, həm də bir sıra ölkələr və xalqlar arasında mədəni əlaqələrin inkişafında mühüm rol oynayıb. Bu mənada, beynəlxalq konfransın keçirilməsi strateji mövqedə yerləşən, beynəlxalq nəqliyyat dəhlizi kimi diqqətləri cəlb edən Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələlərinin aktuallığını ön plana çıxarır.

Konfransın gedişi barədə ümumi məlumat verən Elbrus İsayev məruzələrdə səsləndirilən fikirləri ümumiləşdirib, bölmə iclaslarının yüksək fəallıqla keçdiyini bildirib. O, məruzələrdən irəli gələn yeni tezislər ətrafında məqalələrin çap olunması üçün müəlliflərin bu məqaləri genişləndirilmiş formada təqdim etməsinin vacibliyini vurğulayıb.

Sonra "Beynəlxalq münasibətlər və iqtisadiyyat", "Tarix, arxeologiya və etnoqrafiya", "Coğrafiya", "Mədəniyyət və təhsil", "Filologiya" və "Folklor" üzrə bölmə iclaslarının rəhbərləri çıxış edərək konfransda aparılan müzakirələrin elmi nəticələri barədə ətraflı məlumat veriblər. Qeyd olunub ki, aparılan müzakirələr mövzuları tam əhatə etməklə yanaşı, elm xadimlərinin və tədqiqatçıların yüksək fəallığı şəraitində keçib.

"Naxçıvan" Universitetinin rektoru, professor İsmayıl Əliyev iki gün davam edən beynəlxalq elmi konfransın yüksək səviyyədə baş tutduğunu qeyd edib. Bildirib ki, konfransın keçirilməsi ilə bir daha Naxçıvanın regional cazibə mərkəzi kimi əhəmiyyətinə diqqət yönəlib.

İsmayıl Əliyev vurğulayıb ki, İpək Yolu, sadəcə, ticarət əhəmiyyətinə görə deyil, həm də mədəniyyətlərarası münasibətlərin inkişafına da ciddi təsir göstərmək baxımından çox önəmlidir. Naxçıvan ərazisinin Böyük İpək Yolu üzərində mühüm bir region olması buranın tarixinə, mədəni-iqtisadi inkişafına beynəlxalq diqqəti artırır. Konfransın bölmə iclaslarında səsləndirilən elmi məruzələrdə və aparılan müzakirələrdə bu, bir daha vurğulanıb.

"Naxçıvan" Universitetinin rektoru bölmə iclaslarında fəallıq nümayiş etdirdiklərinə və burada mühüm elmi nəticələrin əldə olunmasında yaxından iştirak etdiklərinə görə beynəlxalq konfransın iştirakçılarına minnətdarlığını bildirərək konfransı bağlı elan edib.

## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüşlər davam etdirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamının icrası ilə bağlı müvafiq nazirliklərdə, komitələrdə və təşkilatlarda tədbirlər planı hazırlanıb. Həmin tədbirlər planı çərçivəsində tələbələrlə görüşlər keçirilir. Növbəti görüş Heydər Əliyev adına tam orta məktəbdə Naxçıvan Dövlət Universitetinin hamiliyə götürülmüş Xarici dil müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrlə olub.

Görüşdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev sərəncamdan irəli gələn vəzifələri nəzərə çatdırıb.

Muxtar respublikada təhsilin inkişafı ilə bağlı slaydlar nümayiş etdirilib, xarici əlaqələrlə bağlı tələbələrin fikirləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

Tədbirdə qeyd olunub ki, müstəqil Azərbaycan üçün xarici dillər üzrə mütəxəssislərin çox böyük əhəmiyyəti vardır. Ölkəmizin beynəlxalq aləmdə tanınmasında bu sahə üzrə kadrların üzərinə mühüm vəzifə düşür.

Tədbirdə Naxçıvan şəhərindəki 10 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Gülcahan Hacızadənin "Müasir ingilis dili müəllimi necə olmalıdır?", 3 nömrəli tam orta məktəbin rus dili müəllimi Ceyran İsmayılovanın "Rus dilinin tədrisi", Naxçıvan Qızlar Liseyinin ingilis dili müəllimi Rəxşəndə Rüstəmovanın "Dilin öyrədilməsində planlaşdırma" mövzularında çıxışları olub.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin tələbələri Nərgiz Qocayeva və Heyran Babazadə çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, təhsil aldıqları ali təhsil ocağında yaradılan şərait tələbələrin öz ixtisaslarını, xarici dilləri ən müasir texniki vasitələrlə və daha dərindən öyrənməklərinə geniş meydan açır. Keçirilən belə tədbirlər isə onların yüksəksəviyyəli mütəxəssis kimi formalaşmasına yeni töhfələr verəcək.

**Xəbərlər şöbəsi**

**Ulu öndər Heydər ƏLİYEV:** ***Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir.***



# Müstəqillik xalqımızın ən böyük sərvətidir

Azərbaycan bir əsrdə iki dəfə dövlət müstəqilliyini elan etmişdir. 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək tam dövlət hakimiyyətinə malik Azərbaycan Respublikasının yarandığını bəyan etmişdir. Müsəlman Şərqinin ilk cümhuriyyəti bir çox xarici dövlətlər tərəfindən tanınmış, müstəqil dövlətin təsisatları yaradılmışdır. Təəssüflər olsun ki, bu müstəqillik tarixinin ömrü çox çəkmədi. RSFSR 1920-ci il aprelin 27-28-də Azərbaycanın müstəqilliyini qanla boğdu. Çar Rusiyasının 1806-1828-ci illərdəki ilhaq siyasəti bu dəfə başqa ampluada – kommunist ideologiyasının milli məni inkar edən idbar baxışlar sistemi şəklində həyata keçirildi. Amma bu, Azərbaycan xalqının azadlıq ideallarını, müstəqillik arzularını susdura bilmədi.

24 il bundan öncə, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunmuşdur. 1991-ci il oktyabr ayının 19-da görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sessiyasına göndərdiyi teleqramda deyilirdi: ***"Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikası Ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atılıbdır. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq hərəkatı uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər".***

Milli müstəqillik ideyasının reallaşdırılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəlişi ilə dövlət müstəqilliyimizin təməli qoyulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Siyasi iradə olmadan milli azadlıq hisləri özlüyündə heç bir nəticə verə bilməz. Konkret məqsədə hesablanmış belə bir fəaliyyət praktikası isə ötən əsrin 70-ci illərindən etibarən özünü göstərməyə başladı. Onun kökündə Azərbaycan naminə fəaliyyət, Azərbaycançılıq ideologiyası əsasında xalqın milli-mənəvi potensialının səfərbərliyə alınması, gələcək müstəqil dövlət üçün möhkəm iqtisadi bazanın yaradılması dayanırdı".***

Ümummilli liderimiz 1969-1982-ci illərdə Azərbaycanda həyata keçirilən tədbirləri taleyüklü tədbirlər adlandıraraq demişdir: ***"Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur. Məsələn, mən burada çoxlu elektrik stansiyaları tikdirdim. Məndən soruşdular ki, bunlar sənin nəyinə lazımdır? Mən onlara bunu nə üçün etdiyimi demirdim... Amma mən istəyirdim ki, mənim ölkəm, mənim xalqım istənilən şəraitdə müstəqil yaşaya bilsin".*** 1969-1982-ci illərdə görülən işlər, tədbirlər ona görə taleyüklü xarakter daşıyırdı ki, onlar zamanı xeyli qabaqlayaraq ölkənin gələcəyini, müstəqil dövlətçilik dövrünü nəzərdə tuturdu. Bu mənada dövlət müstəqilliyimizin təməli, əslində, ötən əsrin 70-80-ci illərində qoyulmuşdu.

Müstəqilliyin ilk illərində Azərbaycanda ictimai-siyasi vəziyyət kritik həddə çatdırılmışdı. Yanlış kadr siyasəti, daxili didişmələr, dünənki "çayxana elitası"nın bu gün mənsəb uğrunda güzəştsiz mübarizəsi, idarəetmə təcrübəsinin olmaması, iqtisadiyyatın aparıcı sahələrinə kadrların peşəkarlıq, bacarıq və təcrübə prizmasından deyil, şəxsi sədaqət prinsipi müstəvisindən təyin edilməsi, ictimai-siyasi ab-havanın getdikcə daha da çirklənməsi Ermənistanla müharibədə torpaqlarımızın təcavüzkar tərəfindən işğal edilməsinə səbəb olmuşdu. Hakimiyyətə zor və silah yolu ilə gəlmiş bir komanda özünün yarıtmaz, səriştəsiz və cinayətkar fəaliyyəti ilə 1993-cü ildə ölkəni parçalanıb məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Azərbaycan əldə etdiyi deklarativ müstəqilliyi həqiqi müstəqilliyə çevirə, bu müstəqilliyi qoruyub inkişaf etdirə, nəhayət, bu müstəqillik idealları üzərində bütöv bir Azərbaycançılıq ideologiyasını ucalda biləcək bir liderə, xilaskara möhtac idi.

Həmin dövrdə ulu öndər Heydər Əliyevi milli dövlətçiliyimizin taleyi çox ciddi narahat edirdi. O, artıq Azərbaycanın müstəqilliyi uğrunda qətiyyətli mübarizəyə başlamışdı. 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb siyasi fəaliyyət göstərən xalqımızın böyük oğlu həqiqi dövlət müstəqilliyinin bünövrəsini bu torpaqda qoymuş, onun rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikası xalqımızın suveren hüquqlarının və dövlət müstəqilliyinin bərpa edilməsi uğrunda gedən mübarizənin mərkəzinə çevrilmişdi. Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda tarixi qərarlar qəbul edilmiş, Azərbaycanın bu qədim diyarında Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributları bərpa olunmuş, muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarılmış, 20 Yanvar hadisələrinə siyasi qiymət verilmişdi.

O dövrdə Azərbaycana rəhbərlik edənlər dövlət müstəqilliyinin formal mahiyyəti ilə kifayətlənərək Sovet İttifaqının qorunub saxlanması üçün 1991-ci il martın 17-də keçirilən referendumda Azərbaycanın iştirakı barədə qərar verməşdilərsə, möhtərəm Heydər Əliyevin tövsiyəsi ilə Naxçıvan Muxtar Respublikası bu qondarma referendumdan imtina etmiş, SSRİ-nin yenidən bərpasına yönəldilən cəhdlər muxtar respublika ərazisində qətiyyətlə aradan qaldırılmış, müvafiq qərarların qəbul edilməsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Ali Sovetindən də xahiş edilmişdi.

Ölkə Prezidenti cənab İlham Əliyev ötən əsrin 90-cı illərində Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirləri dövlət müstəqilliyi üçün mühüm şərt kimi qiymətləndirərək demişdir: ***"1990-cı illərdə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. Məhz o sessiyada Azərbaycanın üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edildi. O vaxt Azərbaycanda hələ Sovet Azərbaycanının bayrağı dalğalanırdı. O vaxt Sovet İttifaqının dağılması haqqında heç kim düşünmürdü. O ağır, o çətin anlarda bu qətiyyətli qərarlar həm Naxçıvanı qorudu, həm də Azərbaycanın gələcək müstəqilliyini şərtləndirdi".***

Ötən əsrin əvvəllərində – müstəqilliyin elan edildiyi 1991-ci ilin oktyabrından 1993-cü ilin iyun ayınadək ölkəmizə rəhbərlik edənlər Azərbaycanı çətin vəziyyətə salmış, dövlət müstəqilliyimiz itirilmək təhlükəsi ilə üz-üzə qalmışdı. Məhz belə bir dövrdə – 1993-cü il iyunun 9-da ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə Naxçıvandan Bakıya qayıtdı. Bu qayıdış tarixin sosial sifarişi idi. Bu qayıdış xalqın istəyi ilə hasil oldu. O böyük şəxsiyyət gəlişi ilə Azərbaycanı uçuruma sürükləyən təhlükələri dəf etdi, insanların nigarançılıqla vuran qəlbinə bir inam və rahatlıq toxumu səpdi. Həmin illərdə üzünü Azərbaycan dövlətçiliyini dağıtmaq istəyənlərə tutan ulu öndər deyirdi: ***"Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm".***

1991-ci ilin oktyabr tarixli müstəqillik haqqında Konstitusiya Aktı Azərbaycana bu müstəqilliyi, sözün həqiqi mənasında, gətirmədi. Hüquqi akt hələ reallıq deyildi. Ona görə də Azərbaycanın həqiqi müstəqillik tarixi ulu öndər Heydər Əliyevin ikinci dəfə ali hakimiyyətə gəldiyi tarixlə hesablanır.

Ulu öndərimizin Azərbaycana rəhbərlik etdiyi 1993-cü ildən 2003-cü ilədək olan dövr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, əbədi, dönməz xarakter aldığı dövrdür. Bu dövr, birinci növbədə, onu göstərdi ki, lider, şəxsiyyət olmadan xalq öz siyasi iradəsini gerçəkləşdirə, müstəqilliyə qovuşa bilməz. ***"Mən həyatımdan keçərəm, ancaq Azərbaycanın müstəqilliyindən keçmərəm"***, – deyən ümummilli liderimiz daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq, öz həyatı bahasına, gecəli-gündüzlü fədakar əməyi hesabına Azərbaycanı müstəqil dövlətə çevirmiş, dövlət müstəqilliyimizi daimi və əbədi etmişdir.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin, bazar münasibətlərinə əsaslanan yenitipli iqtisadiyyatın nəzəri-konseptual inkişaf konsepsiyasını yaratmışdır. Ümummilli liderimiz "Əsrin müqaviləsi"ni imzalamaqla Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirmişdir. Bazar münasibətlərinə əsaslanan iqtisadi islahatların həyata keçirilməsi, sahibkarlığın inkişafının stimullaşdırılması, təkmil qanunvericilik bazasının yaradılması ölkə iqtisadiyyatına xarici sərmayələrin axınını təmin etmişdir. Qeyri-neft bölməsi sürətlə inkişaf etməyə başlamışdır. Özəlləşdirmə proqramı uğurla həyata keçirilmiş, ümumdünya iqtisadi məkanına qətiyyətlə inteqrasiya edən ölkəmiz xammal ixracatçısından istehsal sənayesini qüdrətləndirən və əmtəə ixrac edən əlverişli tərəfdaşa çevrilmişdir. Ölkədə aqrar islahatlar aparılmış, torpaq kəndlilərin mülkiyyətinə verilmişdir. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinin gələcək inkişaf yollarını müəyyənləşdirmişdir: bu, demokratik inkişaf və hüquqi dövlət quruculuğu, Azərbaycançılıq və vətəndaş həmrəyliyi yoludur.

Dövlət idarəçiliyində belə bir konseptual xətt ulu öndərin xeyir-duası ilə böyük siyasətə qədəm qoyub 2003, 2008 və 2013-cü illərdə prezident seçkilərində iştirak edərək xalqın mütləq əksəriyyətinin səsini qazanıb Prezident seçilmiş cənab İlham Əliyevin fəaliyyətində də özünü qabarıq göstərir. Geridə qoyduğumuz illərin nəticələrinə nəzər saldıqda diqqəti cəlb edən əsas məqam ölkədə həyata keçirilən bütün işlərin, çoxcəhətli fəaliyyətin əsas məqsədinin, aparıcı leytmotivinin Azərbaycanın müstəqilliyi və bu müstəqilliyin möhkəmləndirilməsi faktıdır.

Cənab İlham Əliyevin ilk bəyanatı ondan ibarət olmuşdu ki, Azərbaycan indiyədək getdiyi yolu davam etdirəcək, Heydər Əliyev kursu dönmədən həyata keçiriləcəkdir. Heydər Əliyev siyasi kursu nə deməkdir? 1993-cü ildən başlayan bu kurs Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu prosesinin başa çatdırılması, iqtisadi islahatların həyata keçirilməsi və Azərbaycanın dinamik inkişafa xas olan iqtisadi bazasının yaradılması demək idi. Ölkədə siyasi plüralizm, demokratik və vətəndaş cəmiyyətinin bərqərar olması idi. Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası və beynəlxalq hüquq normaları ilə tənzimlənən sivil dünya siyasətinə inteqrasiya etməsi və bu məkanda özünə layiq yer tutması idi. Azərbaycan iqtisadiyyatının onurğa sütununu təşkil edən və əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan yeni neft strategiyasının reallaşması idi.

Sosialyönümlü siyasət yeridən Prezident İlham Əliyev ötən illər ərzində qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlarla daim xalqın mənafeyindən çıxış etdiyini, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini sərgilədi. O, ictimai həyatın bütün sahələrində yeni dövrün tələblərinə uyğun islahatların aparılması, qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin artırılması, regionların proporsional inkişafı, yeni istehsal müəssisələrinin açılması, ən başlıcası, işsizlik probleminin aradan qaldırılması istiqamətində effektiv nəticələrə hesablanmış cəsarətli addımlar atdı. Bu gün müstəqil Azərbaycanın səsi nüfuzlu beynəlxalq kürsülərdən gəlir, balanslaşdırılmış xarici siyasət real dividendlərini verir, ölkə Avropanın enerji təhlükəsizliyi sistemində həlledici rola malikdir. İqtisadi qüdrətimiz respublikanı fəal sərmayəçi ölkəyə, regionda əsas söz sahibinə çevirmişdir.

Son 12 ildə həyata keçirilən tədbirlər, daxili və xarici siyasət sahəsində əldə olunmuş nailiyyətlər dövlət müstəqilliyimizin daha da möhkəmlənməsinə və davamlı xarakter almasına xidmət etmişdir. Bu gün ölkəmizdə hüquqi-demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən islahatlar uğurla davam etdirilir. Artıq Azərbaycan beynəlxalq aləmdə 155 ölkənin dəstəyini qazanan, BMT Təhlükəsizlik Şurasına üzv olan və ona rəhbərlik edən, Qoşulmama Hərəkatında 120 dövlətin dəstəyini alan, beynəlxalq tədbirlərin keçirildiyi, müstəqil siyasət yürüdən dövlətdir. ***"Əsl siyasət real, konkret iş görməkdən ibarətdir"***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son illər ölkəmizdə bir sıra uğurlu infrastruktur layihələri gerçəkləşdirilmiş, bir milyondan artıq yeni iş yeri açılmış, iqtisadiyyat bir neçə dəfə artmış, yoxsulluq azalmış, büdcəmiz artmış, nəticədə, maaşlar, pensiyalar dəfələrlə qaldırılmış, əhalinin sosial rifah halı xeyli dərəcədə yaxşılaşdırılmışdır.

Azərbaycan 24 ildir, müstəqil dövlət kimi yaşayır və inkişaf edir. Bu inkişaf ölkəmizin bütün guşələrində, o cümlədən Naxçıvan Muxtar Respublikasında da özünü göstərməkdədir. Müstəqillik dövründə muxtar respublikamızın keçdiyi yolu xarakterizə etmək, inkişaf dinamikasını görmək üçün real həyata baxmaq kifayətdir. Əldə olunanlar dövlət müstəqilliyinin bəhrələridir.

Hər bir Azərbaycan vətəndaşı çalışmalıdır ki, dövlət müstəqilliyimizi göz bəbəyi kimi qorusun. Çünki müstəqilliyimiz bizim ən dəyərli milli sərvətimizdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Bugünkü Azərbaycan Azərbaycan xalqının zəhmətinin, istedadının nəticəsidir. Bu ölkəni biz qurmuşuq, Azərbaycan xalqı qurubdur. Biz elə etməliyik ki, hər bir vətəndaş gündəlik işində elə etməlidir ki, öz fəaliyyəti ilə bu müstəqilliyi gücləndirsin, əbədi, dönməz etsin və bundan sonra əsrlər boyu Azərbaycan xalqı azad, müstəqil yaşasın".***

*Muxtar respublikada böyük təntənə və ruh yüksəkliyi ilə dövlət müstəqilliyimizin bərpasının iyirmi dördüncü ildönümünün qeyd edildiyi bu günlərdə keçmiş tarixə nəzər salmaq hər bir vətəndaşın xeyrinədir. Keçmişdə qazandıqlarımızı itirməmək, onları daha da inkişaf etdirmək, gələcək nəsillərə təhvil vermək yalnız tarixi bilməklə, ondan ibrət almaqla mümkün olur. Tarix isə bizə onu deyir ki, Azərbaycan xalqı XX əsrdə iki dəfə öz müstəqil dövlətçiliyi üçün mübarizəyə qalxmış, əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətini elan etmiş, lakin təəssüf ki, onu yalnız 23 ay davam etdirə bilmişdir. Bundan yetmiş il sonra bir daha mübarizəyə qalxmış və itirdiyi müstəqilliyi 1991-ci ilin 18 oktyabrında bərpa etmişdir. Bu baxımdan bu gün biz Azərbaycanın öz müstəqilliyini bərpa etməsinin iyirmi dörd illiyini qeyd edərkən onu elan etməkdən daha çox, müstəqilliyi davam etdirən siyasi iradəni, bu siyasi iradənin sahibi olan ulu öndər Heydər Əliyevi və onun müstəqilliyə gedən uzun, çətin yolda səbir və mətanətini, siyasi təcrübəsini və ən başlıcası, müstəqillik üçün hazırladığı əlverişli şəraiti unutmamalıyıq. Unutmamalı və bunu bir siyasi məktəb kimi gələcək nəsillərə də təhvil verməliyik.*

**"Şərq qapısı"**

## Muxtar respublikada keçirilən "Muzey günləri" böyük ictimai əhəmiyyət daşıyır

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, muxtar respublikada fəaliyyət göstərən muzeyləri kollektiv ziyarətlər davam etdirilir.*

Oktyabrın 17-də Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin və struktur qurumlarının kollektivləri Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev-muzeyini ziyarət ediblər.

Həmin gün Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, Dövlət Statistika Komitəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları Bəhruz Kəngərli Muzeyində olublar. Muzeydə bildirilib ki, görkəmli rəssam Bəhruz Kəngərli Azərbaycan realist rəssamlığının banisi və əvəzolunmaz nümayəndəsi, istedadlı fırça ustası kimi xatırlanır. Onun çəkdiyi qiymətli rəsm əsərləri Azərbaycan incəsənətinə yeni iz gətirərək realist rəssamlığın əsasını qoyub. Rəssam ömrü boyu doğma Vətəninin gözəlliklərini öz əsərlərində tərənnüm edib. Onun kömür, karandaş, akvarel və yağlı boya ilə müxtəlif janrlarda yaratdığı 500-ə yaxın əsəri indi də incəsənət muzeylərinin dəyərli eksponatları sırasındadır. Bəhruz Kəngərli bütün ömrü boyu Vətəninə, xalqına bağlı insan olub. Buna görə idi ki, bütün varlığı ilə sevdiyi Vətəninin gözəl guşələrini məhz öz sehrli fırçası ilə kağıza köçürüb, rənglərdən yaranan bir sənət dünyası yaradıb. Sənətkarın bütün qəlbi ilə sevdiyi Naxçıvan onun əsərlərində xüsusi məhəbbətlə təsvir olunub.

Dünən Dövlət Sosial Müdafiə Fondunun və Mərkəzi Seçki Komissiyasının kollektivləri isə Hüseyn Cavidin ev- muzeyini ziyarət ediblər.

Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, "Şərq qapısı" qəzeti redaksiyasının əməkdaşlarının Xatirə Muzeyi ilə tanışlığı maraqlı məqamlarla yadda qalıb. Xatirə Muzeyinin ziyarətçilərinə məlumat verilib ki, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş naxçıvanlıların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar nümayiş etdirilir. Eksponatların xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilməsi ziyarətçilərin muzeylə daha yaxından tanış olmasına imkan yaradır.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin həkim briqadası ənənəni davam etdirərək oktyabrın 16-da Ordubad rayonunun Tivi kəndində olmuşdur.*

## Tividə kütləvi profilaktik müayinələr aparılmışdır



Briqada yüksəkixtisaslı həkimlərlə, həmçinin köməkçi müayinə aparatları ilə təchiz edilmişdir. Həkim briqadasının kəndə gəlişi barədə əvvəlcədən məlumat verildiyindən əhalinin kütləvi tibbi profilaktikasına nail olunmuşdur. Əhalinin kütləvi profilaktik müayinələri bu həftə istifadəyə verilən və lazımi tibbi avadanlıqlarla təchiz edilmiş həkim ambulatoriyasında həyata keçirilmişdir.

Gün ərzində həkim ambulatoriyasında 13 stomatoloji, 21 ürək, 21 kardioloji, 22 ginekoloji, 22 göz, 39 USM, 13 laboratoriya, 22 EKQ, 13 nevroloji və 25 pediatrik müayinə aparılmışdır. Eyni zamanda kənd məktəbində həkim briqadası tərəfindən 109 məktəbli göz və pediatrik müayinələrdən keçirilmişdir. Kütləvi profilaktik tibbi müayinələrdə kənd ambulatoriyasının həkim və orta tibb işçiləri yaxından iştirak etmişlər. Aşkar olunan ilkin xəstələrin müvafiq səhiyyə müəssisələrində dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülmüş, onlara ambulator kartlar açılmışdır. Bir nəfər ağır xəstəyə evdə baxış keçirilmişdir. Kənd üzrə dispanser qeydiyyatında duran xroniki xəstələrin sayı dəqiqləşdirilmişdir. Əhali arasında qrip, hipertoniya, ürək-damar, yoluxucu, dəri-zöhrəvi, şəkərli diabet, ginekoloji, allergik, yuxarı tənəffüs yollarının xəstəlikləri barədə söhbətlər aparılmış, onların profilaktikası haqqında məlumatlar verilmişdir.

**Arzu ABDULLAYEV**

## Təhsil müəssisələrinə mal-material paylanmışdır

28 avqust 2015-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilmiş və digər təşkilatlarla yanaşı, təhsil müəssisələrinin də payız-qış mövsümündə fasiləsiz fəaliyyətinin təmin olunması ilə bağlı konkret tapşırıqlar verilmişdir. Verilən tapşırıqlara uyğun olaraq, Təhsil Nazirliyi tərəfindən ardıcıl işlər həyata keçirilir.

Görülmüş işlərin davamı olaraq, payız-qış mövsümündə müəssisələrin fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə muxtar respublikamızda neftlə qızdırılan təhsil müəssisələrinə soba, soba borusu, dirsək, şifer, şüşə və polietilen örtük verilmişdir. Verilən mal-material birbaşa mərkəzləşdirilmiş qaydada rayonlar üzrə bölünmüş və təhsil müəssisələrinə çatdırılmışdır.

Muxtar respublika rəhbəri tərəfindən yaradılan bu şərait təhsil işçilərinə göstərilən yüksək diqqət və qayğının bariz nümunəsi olmaqla təhsilin səviyyəsinin yüksəldilməsi üçün stimul yaradır.

Təhsil Nazirliyi mal-materialdan səmərəli və təyinatı üzrə, düzgün idarə edilməsi, məktəblərdə təhlükəsizlik qaydalarına əməl olunmasını nəzarətə götürməklə payız-qış mövsümündə təhsil müəssisələrinin fasiləsiz fəaliyyətinin təmin olunmasına çalışacaqdır.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

## Şahbuzun meyvə bağları



*Naxçıvanın şöhrətini hər yerə yayıb, onu tanıdan çox sayda sərvətləri, bar-bərəkətli torpaqları vardır. İlin hansı fəslində desən, naxçıvanlıların süfrəsi hər cür nemətlərlə, növbənöv yerli meyvələrlə zəngindir. Yaz bitməmişdən yetişən təzə Ordubad, Şərur meyvələri, sonra aşıb-daşan Babək, Culfa bağlarının məhsulları, ardınca da payızın bu bərəkətli çağında Şahbuzun meyvə bağları hamının üzünə gülür.*

Torpağın mineral tərkibindəndir, ya içdiyi sudan, amma Şahbuz meyvələrinin öz yeri var. Bal kimi ətirli Kükü alması, Badamlı badamı, qar kimi ağappaq Keçili cəvizi, az qala üçü bir kilo gələn sulu Ayrınc armudu, bir az gec yetişsə də, hamının çox bəyəndiyi Aşağı Qışlaq və Kolanı əriyi, özünəməxsus dadı olan Mahmudoba üzümü Naxçıvan bazarında çoxlarına tanışdır. Bütün bunlar və adlarını çəkmədiyimiz digər meyvələr Şahbuz şəhəri və onun bütün kəndlərinin sərvəti, əhalisinin əsas məşğuliyyətlərindən biridir.

Şahbuzda meyvəçilik çox sərfəli sahədir. Rayonun torpaq-iqlim xüsusiyyətləri, zəngin su sərvətləri imkan verir ki, burada Naxçıvan torpağına məxsus əksər növ meyvələr bar versin. Elə qədimdən də burada müxtəlif meyvə sortları əkilib torpağa uyğunlaşdırılmışdır. Bu gün Şahbuzda meyvə ağacları olmayan həyətə çox çətin rast gələrsən. Həyətyanı sahələrdə yaşı az qala üç yüz ilə çatan qocaman cəviz ağaclarından tutmuş ötən illərdə salınmış cavan bağlaradək hər cür ağaclar vardır. Rayonda 80 yaşlı bağbanla yanaşı, 30 yaşlı gəncin də meyvəçiliyə olan eyni həvəsini görmək mümkündür. Şahbuzla, onun kəndləri ilə tanış olanlar bunu təsdiq edərlər. Son illər dövlətin meyvəçiliyə ayırdığı diqqət özünü bu rayonda daha qabarıq göstərib. Rayonda olarkən öyrəndik ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilən "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" rayonda meyvəçiliyin inkişafına marağı daha da artırıb. Dövlət proqramına uyğun olaraq, son illərdə burada 60,9 hektar sahədə yeni meyvə bağları salınıb. İndi artıq şahbuzluların öz tələbatlarından dəfələrlə artıq miqdarda məhsulverən meyvə bağları vardır. İlin bu bərəkət aylarında toplanan meyvələrin saxlanılması üçün rayonda 300 tonluq soyuducu anbar da fəaliyyət göstərir. Şahbuzda hər mövsümdə bir neçə ton meyvəsi olan iri torpaq mülkiyyətçisi onlarladır. Muxtar respublikamızda daxili bazarın qorunması istiqamətində görülən tədbirlər və torpaq mülkiyyətçilərinə yaradılmış şərait onları daha çox meyvə bağı salmağa, daha çox məhsul istehsal etməyə həvəsləndirir. Axı Naxçıvan bazarında meyvəyə, xüsusən Şahbuz meyvələrinə tələbat böyükdür. Buna təkcə Naxçıvan şəhərində hər həftənin şənbə və bazar günləri təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkasına baş çəkməklə də şahid olmaq olar. Naxçıvanın hər yerindən yarmarkaya gətirilən təzə meyvə-tərəvəz arasında Şahbuz nemətlərinin öz alıcısı var.

İndi Şahbuza yolu düşən olsa, sizi qonaq edən şahbuzlunun açdığı süfrə arxasında hökmən meyvələrdən danışılacaq. Burada yetişən meyvə sortlarından, onların keyfiyyətindən həmsöhbətə danışmağı çox sevirlər. Amma söhbətə də vaxt azdır. Günlər qısalır, önümüzdə yağışlı günlər var. Meyvələrin yarısı isə hələ ağaclardadır.

**Əli CABBAROV**

## DSMF maarifləndirici tədbirləri davam etdirir

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun (DSMF) şöbələri tərəfindən "Məcburi dövlət sosial sığorta haqları, sığorta-pensiya sisteminin mahiyyəti, sosial sığorta sistemində fərdi uçotun təşkili, əmək pensiyalarının təyinatı və ödənişi sahəsində elektron xidmətlərin tətbiqi" mövzusunda maarifləndirici tədbirlərin keçirilməsi davam etdirilir. Növbəti maarifləndirici tədbir DSMF-nin Culfa Rayon Şöbəsi tərəfindən Göydərə kəndində keçirilmişdir.*

Tədbiri Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Nazim İmaməliyev açaraq onun əhəmiyyətindən danışmışdır.

DSMF-nin Culfa Rayon Şöbəsinin müdiri Vüsal Məmmədzadə çıxış edərək sosial sığortahaqqı ödənişlərinin gələcək pensiya təminatındakı mühüm əhəmiyyətindən, elektron xidmətlərin tətbiqinin sosial müdafiə sistemində təsirindən danışmışdır. Qeyd edilmişdir ki, internet vasitəsilə ***www.dsmf.nakhchivan.az*** saytına daxil olmaqla sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və torpaq mülkiyyətçiləri plastik kartlar vasitəsilə məcburi dövlət sosial sığorta haqlarını tam şəkildə ödəyə bilərlər. Bu amil vaxta və vəsaitlərə qənaət etmək, sürətli ödəniş etmək və həmçinin təhlükəsizlik baxımından sığortaedənlərə rahatlıqla bərabər, məsafədən maliyyə idarəetməsini həyata keçirməyə imkan yaradacaqdır. Sığorta-pensiya sistemində ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının əsas meyar olduğunu nəzərə alaraq, vətəndaşlar öz fərdi hesablarında məlumatların tam əks edilməsində maraqlı olmalıdırlar.

Vurğulanmışdır ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən elektron sənəd mübadiləsinin daha da təkmilləşdirilməsi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində idarəetmənin səmərəliliyinin artırılması, sığorta-pensiya sisteminə aid bütün məsələlərə aydınlıq gətirilməsi, əhalinin elektron xidmətlərə çıxış imkanlarının daha da genişləndirilməsi məqsədilə ardıcıl tədbirlər davam etdirilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən təqdim olunmuş 20 elektron xidmətdən istifadəyə verilmiş 10 elektron xidmətin sayı 2015-ci ilin sentyabr ayından etibarən 13-ə çatdırılmış, 2015-ci ilin oktyabr ayında isə daha iki yeni xidmət istifadəyə verilmişdir.

"Kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxsin onlayn uçota alınması" və "Ailə-kəndli təsərrüfatının onlayn uçota alınması" xidmətləri müvafiq olaraq, ailə-kəndli təsərrüfatlarının və mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxslərin sığortaedən kimi uçota alınaraq onlara sığortaedənin uçot nömrəsinin verilməsini nəzərdə tutur. Bu xidmətlərin istifadəyə verilməsi sığortaedənlərin uçotaalınma prosesinə sərf olunan vaxtın minimuma endirilməsi ilə yanaşı, bu prosesin daha da sadələşdirilməsi və təkmilləşdirilməsi məqsədini daşıyır.

Diqqətə çatdırılmışdır ki, fondun internet səhifəsində yaradılmış elektron xidmətlər bölməsinə daxil olan istənilən vətəndaş öz fərdi hesabı barədə məlumat ala, eləcə də pensiya kalkulyatoru vasitəsilə pensiyasını hesablaya bilər.

Culfa rayon Göydərə kənd inzibati ərazi dairəsi üzrə nümayəndə İlham Canməmmədov onlara ətraflı məlumat verdikləri üçün tədbirdə iştirak edən torpaq mülkiyyətçiləri və fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslər adından minnətdarlığını bildirmişdir.

Tədbirin sonunda torpaq mülkiyyətçilərini maraqlandıran suallar cavablandırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

## Velosiped yarışı üzrə muxtar respublika birinciliyi

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkil etdiyi 18 oktyabr Dövlət Müstəqilliyi Gününə həsr edilmiş velosiped yarışı üzrə Naxçıvan Muxtar Respublika birinciliyinə yekun vurulub. Kəngərli rayonu ərazisində keçirilən birincilikdə şagirdlər və tələbələrdən ibarət 80-ə yaxın idmançı mübarizə aparıb. Nəticəyə əsasən, şagirdlər arasında Ramil Sadiqov, Hafiz Nəcəfov və Hüseyn Cəfərov yarışı ilk üç pillədə başa vurublar. Tələbələrdən isə Xalid Novruzov, Tağıyar İsmayılov və Malik Hənifəyev müvafiq olaraq I, II və III yerləri tutublar.

Sonda qalib idmançılar diplomla təltif olunublar.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 787